**Turan, Anar**. Kəlbəcərin azad edilməsinin sevincini sözlə ifadə etmək qeyri-mümkündür / A. Turan. - Текст : непосредственный // Xalq qəzeti. - 2020. - 29 noyabr. - **№ 250**. - S. 4.

***Nəhayət ki, doğma yurdumun həsrətinə son qoyuldu. Artıq bu gündən mənim də Vətənimin bir parçası, Kəlbəcərim var. 27 il ərzində bir an belə öz uşaqlıq və erkən gənclik illərimin keçdiyi doğma yurdumdan ayrılmadım, onu bir an belə xəyalımdan uzaq tutmadım. 2020-ci ilin 25 noyabrı biz kəlbəcərlilər üçün yenidən dünya işığına çıxmaq tarixi kimi əbədiləşdi. Buna görə Azərbaycanın möhtərəm Prezidentinə, Silahlı Qüvvələrimizin Ali Baş Komandanına, müzəffər ordumuzun əsgər və zabitlərinə dərindən təşəkkürümü bildirirəm...***

Bu fikirləri ehtiyatda olan zabit, Birinci Qarabağ müharibəsinin iştirakçısı, müharibə veteranı, əslən Kəlbəcər rayonundan olan Çingiz Yusifov bildirdi.

Qarabağ qazisi qeyd etdi ki, 44 günlük müharibə Azərbaycanın dünyaya illərdir ötürdüyü, lakin dinlənilməyən, eşidilməyən haqq səsinin nəhayət güc nümayişi idi. Bu müharibədə şəhidlərimiz, yaralılarımız oldu, lakin qürurumuz ucaldı, torpaqlarımız işğaldan azad olundu. Düşmən dövlətin ordusunu, demək olar ki, yox etdik. Ermənistan ordusu döyüş meydanından qaçdı. Ordumuzun zərbələrinə heç cür tab gətirə bilmədi və nəhayət, erməni baş nazir sülhə məcbur edildi. Bu, Azərbaycan dövlətinin haqq işinin qələbəsi idi. Azərbaycan insanının haqq yolundan dönməyəcəyi vədinin yerinə yetirilməsi idi. Bu zəfər üçrəngli bayrağımızın işğal olunmuş torpaqlarımızda yenidən dalğalanması idi. Bir sözlə, bu böyük xoşbəxtlik idi ki, biz bunları görə bildik. Bir kəlbəcərli olaraq ümidimi itirməmişdim. Bir zabit kimi, hərbçi kimi, bir gün mütləq torpaqlarımızın yenidən özümüzə qayıdacağına səmimi qəlbdən inanırdım. Lakin etiraf edirəm ki, inanmayanlar, ümidini itirənlərimiz də az deyildi. Müzəffər ordumuzun qələbəsi həmin ümidsizlərə də ümid verdi, onların sarsılmış ruhunu özlərinə qaytardı.

Ç. Yusifov əlavə etdi ki, mən Birinci Qarabağ müharibəsində ağır döyüşlərdə iştirak etmişəm, dəmir iradəyə sahib olan, döyüşkən, cəsur oğullarımızı da görmüşəm. Lakin o zamankı siyasi-hərbi mühitin dağıdıcı olduğu, komandanlığın pərakəndə qərarlar qəbul etməsi, silah-sursat təminatının, təchizatın zəif olmasını da yaxşı xatırlayıram. Bu baxımdan, həmin əsgərlərimizin güclü iradəsi olmasına baxmayaraq, düşmənlə silah-sursat və say baxımından qeyri-bərabər savaşa atıldıq və nəticədə döyüşü uduzduq. Çoxsaylı şəhidlərimiz və qazilərimiz oldu, torpaqlarımız əldən getdi.

Lakin bu dəfə vəziyyət tamam başqa idi. Güclü komandanlıq, düzgün siyasi rəhbərlik, qəti və yerində qəbul olunan qərarlar, silah-sursat təminatı, modern silah sistemləri və hazırlıqlı, nizam-intizama sahib ordu. Bu dəfə qeyd etdiyim göstəricilərin hamısı üst-üstə düşdü. Ona görə də, düşməni, sözün həqiqi mənasında, darmadağın etdik.

Kəlbəcərin düşməni sülhə məcbur edilərək alınması isə çox böyük əhəmiyyət daşıyır. Çünki mən o torpaqların hər qarışına bələd olan biri kimi yaxşı dərk

edirəm ki, əgər döyüş yolu ilə alınsaydı, itkilərimiz də çox ola bilərdi. Çünki Kəlbəcər başdan-başa dağlardan, sıldırım qayalardan, təhlükəli keçidlərdən ibarətdir. Orada uzun illər möhkəmlənmiş düşməni məğlub etmək çoxsaylı şəhid və yaralılarımızın hesabına ola bilərdi. Lakin bir nəfər itki, bircə yaralımız belə olmadan, Azərbaycanın ən böyük rayonlarından birini düşməndən geri almağımız fövqəladə bir uğurdur.

Müdafiə Nazirliyinin müzəffər ordumuzun qədim Kəlbəcərə daxil olmasını görüntüləyən kadrlarına baxdım. Azərbaycan hərbçilərini, əllərində üçrəngli bayrağımızı gördüm və bu misilsiz görüntüləri ən ali hiss və həyəcanla izlədim.

Ali Baş Komandan İlham Əliyev növbəti dəfə xalqa müraciət edərək dedi ki, əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Ali Baş Komandan İlham Əliyevdən bu sözləri eşitməyin sevincini bir kəlbəcərli olaraq, mən də qürur hissi ilə yaşadım. Bu sevinci sadəcə olaraq sözlə ifadə etmək qeyri-mümkündür. O torpaqlara, yaxınlarımızın məzarları olan yurd yerimizə getmək, dünyada məşhur olan İstisudan içmək, o tayı-bərabəri olmayan təbiəti seyr etmək, ermənilərin vəhşiliklərinə məruz qalan qədim inanc, ibadət yerlərimizi ziyarət etmək, o dağların səfalı havasını udmaq üçün günlərimizi sayırıq. Ulu Tanrı bizi bu istəyimizə qovuşdursun. Amin!

***Qələmə aldı: Anar TURAN, “Xalq qəzeti”***